***Bizim transmilli layihələrimiz regionda tamamilə yeni mənzərə yaratdı. Biz regionun enerji xəritəsini, nəqliyyat xəritəsini yenidən tərtib etdik. Bizim təşəbbüsümüzlə reallaşan layihələr təkcə bizim xalqımızın maraqlarını təmin etmir, bir çox ölkələrin maraqlarını təmin edir, o cümlədən, region ölkələrinin. Qonşu ölkələrlə bizim həm ikitərəfli, həm üçtərəfli əməkdaşlıq formatlarımız vardır. Bütün bunlar Azərbaycanın beynəlxalq nüfuzunu böyük dərəcədə gücləndirdi. Əgər bu nailiyyətlər olmasaydı, problem dondurulmuş vəziyyətdə qala bilərdi.***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

# Azərbaycan meqalayihələrin reallaşdırılması ilə Avropanın enerji və nəqliyyat xəritəsini dəyişir




***Dövlətimizin başçısı Azərbaycanın hər zaman xarici ölkələrlə səmərəli əməkdaşlığa üstünlük verdiyinin və bunun müsbət nəticələrlə müşahidə edildiyinin mühüm önəm daşıdığını diqqətə çatdırıb, həmçinin respublikamızın müxtəlif vaxtlarda yaxın-uzaq ölkələrə imkan daxilində kömək göstərdiyinin yüksək dəyərləndirildiyini də xatırladıb. Prezident İlham Əliyev bu barədə deyib: "Bizim bir neçə önəmli transmilli layihəmiz məhz bu prinsip əsasında qurulub və uğur da məhz bu əsasda qazanılıb. Azərbaycan xarici siyasətdə qarşılıqlı dəstəyi sözdə yox, əməldə, həmrəylikdə nümayiş etdirib".***

Bu gün əksər regional və bir sıra beynəlxalq layihələr Azərbaycanın iştirakı ilə gerçəkləşdirilir. Bu baxımdan, ölkəmizin Avropanın enerji təhlükəsizliyində oynadığı mühüm rol xüsusilə diqqət çəkir. Bunun başlıca səbəbi isə düşünülmüş uğurlu balanslı xarici siyasət, dünya dövlətləri ilə bərabərhüquqlu və qarşılıqlı maraqlara söykənən əməkdaşlıq münasibətləri, həmçinin respublikamızda yaradılan əlverişli iqtisadi şəraitdir.

***(ardı 3-cü səhifədə)***

# Azərbaycan meqalayihələrin reallaşdırılması ilə Avropanın enerji və nəqliyyat xəritəsini dəyişir

*(əvvəli 1-ci səhifədə)*

Azərbaycanın beynəlxalq layihələrdə fəal iştirakından danışarkən, bir məqamı xüsusilə qeyd etmək lazımdır. Bu, Cənub Qaz Dəhlizinin uğurla reallaşdırılması ilə bağlıdır. Xatırladaq ki, Cənub Qaz Dəhlizi çox sayda müxtəlif maraqlı tərəfləri özündə əhatə edən mürəkkəb bir layihədir. Dəhlizin seqmentləri "Şahdəniz-2", Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi, TANAP və TAP layihələrindən ibarətdir. Bu layihə dünyada inkişaf etdirilən ən kompleks təbii qaz boru kəmərləri zənciri kimi qiymətləndirilir. Avropa İttifaqı üçün prioritet enerji layihələrindən biri olan Cənub Qaz Dəhlizi Xəzər regionundakı müəyyən qaz ehtiyatını Avropa bazarına daşımaqla dünyanın enerji xəritəsini dəyişir.

Onu da qeyd edək ki, dəyəri 33 milyard ABŞ dolları olan Cənub Qaz Dəhlizi hazırda Avropanın enerji təhlükəsizliyində xüsusi çəkiyə və təsir gücünə malikdir.

Bir zamanlar xarici təzyiq və müdaxilələr üzündən Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinə vəsait ayırmaqdan çəkinən beynəlxalq maliyyə institutlarının əksəriyyəti ölkə rəhbərinin müdrik konsepsiyasının gerçəkləşdirilməsi sayəsində sonradan Cənub Qaz Dəhlizinə fərqli münasibət göstərdi, yekdilliklə bu layihəyə dəstək verdi, eyni zamanda, onun icrası dövründə ölkəmizin bu məsələdə fəal mövqeyini  və etibarlı tərəfdaş olduğunu yüksək qiymətləndirdi.

Onu da deyək ki, Cənub Qaz Dəhlizi inşa olunmadan investor heç bir digər layihəyə vəsait qoymazdı, yaxud da tərəddüd edərdi. Çünki istər "Abşeron",  "Qarabağ", istərsə də digər yataqlardan  çıxarılacaq qazın ixracı üçün yol  olmalıdır. Ona görə Cənub Qaz Dəhlizinin əhəmiyyəti təkcə "Şahdəniz" layihəsi ilə məhdudlaşmır. Bu layihə gerçəkləşdirilmədən Azərbaycanın enerji siyasəti yarımçıq qala bilərdi. Amma bu gün respublikanın enerji siyasəti ölkəmizin maraqlarını tam təmin edir. Məsələn, "Şahdəniz" yatağı ən azı yüz il bundan sonra Azərbaycanı və tərəfdaş ölkələri qazla təchiz edəcək.

Qeyd edək ki, Azərbaycan qazı Avropaya Cənubi Qafqaz, Ttans-Anadolu (TANAP) və Trans-Adriatik (TAP) qaz kəmərləri ilə nəql olunaraq çatdırılır.

Xatırladaq ki, Cənub Qaz Dəhlizi layihəsinin bir hissəsi olan TAP kəməri ilə "Şahdəniz-2" layihəsi çərçivəsində hasil olunan



qazın ilkin olaraq ildə 10 milyard kubmetrinin Avropaya nəqli nəzərdə tutulur. Yunanıstan, Albaniya və Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna qədər uzanan bu boru kəmərinin potensialı onun ötürücülük gücünü iki dəfə artıraraq, ildə 20 milyard kubmetrə çatdırmağa imkan verir.

Onu da xatırladaq ki, indiyədək həyata keçirilən layihələr çərçivəsində Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft-qaz kəmərlərinin istifadəyə verilməsi də nəinki Azərbaycanın və Türkiyənin, hətta digər ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində müstəsna rol oynayıb.

Yeri gəlmişkən, ötən il magistral neft kəmərləri ilə 35 milyon 18 min ton neft nəql edilib.

Azərbaycanın nəqliyyatla bağlı reallaşdırdığı meqalayihələrə gəldikdə isə deyə bilərik ki, "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi"ndə Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri vasitəsilə ölkəmizin rəqabətqabiliyyətliliyinin təmin edilməsi qarşıya mühüm vəzifə kimi qoyulub. Son illərdə bu məsələ nəqliyyat və iqtisadi əhəmiyyəti ilə bərabər, geosiyasi rolu baxımından da xüsusi diqqət çəkib. Ona görə də Azərbaycanın həm nəqliyyat dəhlizlərinin kəsişdiyi coğrafi məkan, həm də ciddi rəqabət qabiliyyətinə malik dövlət olaraq bu prosesdə iştirak etməsi, ölkəmizi regionun geosiyasi, iqtisadi, kommunikasiya və logistika mərkəzi kimi tanıdıb.

Bütün bunlarla bərabər, respublikamızda nəqliyyat infrastrukturunun inkişafı ilə bağlı irimiqyaslı tədbirlər həyata keçirilir, bu sahəyə böyük həcmli dövlət investisiyaları yönəldilir. Avtomobil yollarının və dəmir yolu xətlərinin, xüsusilə Gürcüstan, Rusiya və İran istiqamətində respublika ərazisindən keçən magistral yolların beynəlxalq standartlar əsasında yenidən qurulması, Bakıda və regionlarda beynəlxalq hava limanlarının, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində layihələr gerçəkləşdirilir və bu, Azərbaycanın nəqliyyat infrastrukturunun inkişafında əhəmiyyətli rol oynamaqla yanaşı, ölkəmizin tranzit potensialını daha da gücləndirir.

Prezident İlham Əliyevin qlobal xarakter daşıyan siyasi və iqtisadi məsələlərə diqqətlə yanaşmasının nəticəsidir ki, ölkəmiz indi bir tərəfdən Çinin təklif etdiyi "Bir kəmər, bir yol" layihəsinə qoşulmaqla Asiya ilə Avropa arasındakı iqtisadi əlaqələrdə dayaq məntəqəsinə, digər tərəfdən, İranın da iştirak etdiyi Şimal-Cənub nəqliyyat dəhlizi layihəsinə qoşularaq logistika mərkəzinə çevrilir.

Elə bu günlərdə Çindən Xəzər dənizi və Azərbaycan üzərindən keçməklə Avropaya yeni yük qatarı marşrutunun işə salınması da yuxarıda qeyd edilənlərin bariz ifadəsidir. Avropaya dəmir yolu ilə yükdaşımalar üzrə iri qovşağı hesab olunan Çinin Sian şəhərindən başlayan marşrut dəmir yolu və bərələr vasitəsilə Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Qara dənizdən keçməklə Rumıniyanın Konstantsa limanına, oradan isə Macarıstan, Slovakiya, Çexiyadan keçərək Almaniyanın nəqliyyat qovşağı olan Manheym şəhərinədək uzanır.

Təxminən, 11 min 300 kilometr uzunluğu olan bu marşrut üzrə 42 konteynerdən ibarət ilk qatar aprelin 13-də Siandakı beynəlxalq yük limanından yola çıxıb və hazırda yoldadır. Bu, Çin ilə Avropa arasında yüklərin daşınması üçün 2020-ci ilin dekabrında Bakı-Tbilisi-Qars xətti vasitəsilə istifadəyə verilmiş Türkiyə–Çin (Sian) dəmir yolu əlaqəsinin ardından, bir neçə beynəlxalq logistika şirkəti ilə birgə yaradılan növbəti Çin-Avropa marşrutudur. Şimal xəttinə alternativ olaraq açılan bu marşrut yerli və xarici ticarət və logistika şirkətləri üçün yeni imkanlar açacaq. Marşrutun üzərindəki bəzi ölkələrdən və bölgələrdən əvvəllər Çin–Avropa yük qatarlarının nadir hallarda keçdiyini nəzərə alsaq, təzə xəttin şirkətləri yeni beynəlxalq bazarlara çıxaracağını da söyləyə bilərik. Avropada hazırkı münaqişələr fonunda yeni açılan marşrutun Çin ilə Avropa, xüsusilə Mərkəzi və Şərqi Avropa ölkələri arasında yeni ticarət kanalına çevrilmək potensialı böyükdür.

Bütün bunlar deməyə əsas verir ki, artıq respublikamızın nəqliyyat təhlükəsizliyi təmin edilib, Azərbaycan Avrasiyanın önəmli nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilib və ölkəmizin fəal iştirakı ilə Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizləri səmərəli fəaliyyətdədir və Şərq-Qərb nəqliyyat dəhlizi üzərində artıq iki qol – biri Çin–Qazaxıstan-Azərbaycan-Gürcüstan–Türkiyə–Avropa, digəri isə Pakistan–Əfqanıstan-Türkmənistan–Azərbaycan-Gürcüstan–Türkiyə–Avropa mövcuddur. Hər ikisi Azərbaycan ərazisindən keçir və təbii ki, respublikamızın  imkanlarını daha da genişləndirir. Şimal-Cənub nəqliyyat dəhlizi isə Şimali Avropa–Rusiya-Azərbaycan–İran–Hindistan ölkələrini əhatə edir. Bu, sözügedən istiqamətdə də nəqliyyat təhlükəsizliyimizin təmin olunmasından xəbər verir.

Yeri gəlmişkən, burada onu da vurğulayaq ki, Bakı–Tbilisi–Qars (BTQ) dəmir yolu da region üçün strateji əhəmiyyətə malikdir, konteyner daşımaları, Avrasiyaboyu multimodal nəqliyyatın həcminin artırılması, Asiyadan Avropaya istiqamətlənən karqo axınları üçün rəqabətqabiliyyətli bağlantı təmin edir. Asiya və Avropa arasında ən qısa marşrutu reallaşdırmaqla BTQ dəmir yolu bağlantısı gələcəkdə bir neçə milyon ton karqo daşınmasınının reallaşdırılması məqsədi daşıyır.

Yuxarıda qeyd olunanlar Azərbaycanın hazırda dünyada güclü və nüfuzlu dövlət, ictimai-siyasi sabitliyin, davamlı inkişafın təmin edildiyi respublika kimi tanındığını deməyə əsas verir. Ölkəmizin inkişafının, nailiyyətlərinin əsasında isə dövlətimizin başçısı İlham Əliyev tərəfindən uğurla, uzaqgörənliklə reallaşdırılan daxili və xarici siyasət kursu dayanır. Bunun nəticəsidir ki, xalqımız dövlətimizin başçısının həyata keçirdiyi siyasəti birmənalı şəkildə dəstəkləyir, bu siyasətə alternativ görmür, əldə olunan uğurları yüksək qiymətləndirir.

***V.BAYRAMOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2022.- 29 aprel.- S.1;3.